# Həyatımın Qəşəm İsabəyli güzgüsü



**Şəddat CƏFƏROV**

***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Həyat çox vaxt arzuların qayçısıdır. Necə deyərlər, imkanlarımıza uyğun gəlməyən, qədərindən artıq olan arzuları həyat çox asanlıqla qayçılayır. Bir az da dədə-baba diliylə desək, ayağımızı yorğanımıza görə uzatmağa bizi vadar edir. Amma... bəli, elə də olur ki, insan bu qayçılanmanı, istəklərin qabağına çəkilən sədləri mütiliklə qəbul edir. Onunla razılaşır. Elə adamlar da var ki, gücünə, mənəvi təpərinə güvənib işıq bildiyi arzularına doğru hər cür çətinliyə sinə gəlir, qabağına çıxan sədləri adlayıb keçə bilir. Əlbəttə, bunun üçün filosoflar demiş, iti nəzərlərin olmalıdır, aydın düşüncəyə güvənməlisən. Xəyalla reallığı ayırd etməyi bacarmalısan.

İndi bu düşüncələr içərisində xəyalən dolaşıram, gözlərimin önündən həyatımın ən qaynar çağları gəlib keçir. Onda arzularım, istəklərim cilova yatmayan xam köhlən kimi vurnuxurdu. Əlbəttə, o vaxt da yolum rahat deyildi, ancaq rahat olmayan yolla belə getməkdə israrlı idim. Qarşıma çıxan, həyatımda rolu olan, yaxud da yaddaşımda yaxşı, ya da pis keyfiyyətləri ilə iz buraxmış adamlar çox olur. İndi yaddaşımın işığında gördüyüm həyatıma mane olan admaların haqqında çox düşünmürəm. Əksinə, onların da təbiətindən hansısa bir yaxşı keyfiyyəti xatırlayıb daxilən gülümsünürəm. Hətta olur ki, kimsə mənim öz-özümə gülümsənməyimə təəccüblə baxır, səbəbini soruşur. Mən də "heç, elə keçmişləri xatırladım" deyirəm. Söz yox, elə adamlar da var ki, işıqlı təbiətləri ilə yaddaşımda boya-boy görünürlər. Onları ən xoş duyğularla xatırlayır, cəmiyyət üçün necə faydalı insanlar olduqlarını düşünərək hər birini minnətdarlıqla anıram. Elələri var ki, həyatdan köçüb, elələri də var ki, bu gün də yaşayır, maraqlı xasiyyətləri, xeyirxah əməlləri ilə cəmiyyətə fayda verirlər.

Mən əsasən istehsalat adamıyam. Buna baxmayaraq elmi axtarışlara, xüsusilə ixtisasım olan poliqrafiya sahəsinə dair tədqiqatlar aparmağa xüsusi önəm vermişəm. Bu işim də nəticəsiz qalmayıb. İndi də bir çox dostlarım mənimlə görüşəndə "Azərbaycanın ilk poliqrafçı aliminə salam olsun" deyirlər. Bu məni qürurlandırır.

Fəaliyyətimin xeyli hissəsi də mətbəə işi ilə yanaşı ədəbi-bədii yaradıcılığa sərf olunub. Kimlərəsə qəribə görünə bilər, ancaq mənim üçün burada qəribə heç nə yoxdur. Axı mənim fəaliyyətimin əsas sahəsi, dediyim kimi, mətbəə ilə, kitab nəşri ilə bağlı olub. Əlbəttə, kitabların da müəllifləri alimdir, yazıçıdır, jurnalistdir. Belə bir mühitdə pərvəriş tapan adam özü sözdən kənarda necə qala bilər?

Beləliklə, sözlə ünsiyyətim məni həm də yazıçılarla, naşirlərlə, tədqiqatçılarla doğmalaşdırıb.

Bütün həyatım yaradıcı insanların mühitində keçib. Onu da deyim ki, mənim öz müasirlərimdən həyatıma və yaradıcılığıma diqqətsiz yanaşma sarıdan heç bir gileyim yoxdur. Həyatıma dair sənədli romanlar, povestlər, kinossenarilər yazılıb, filmlər çəkilib. Jurnalistlərin isə həmişə diqqətmərkəzində olmuşam. Hər hansı bir ictimai hadisə ilə bağlı rəyim soruşulub, müsahibə götürülüb. Qəzetlər mənim fikirlərimi manşetlərə çəkiblər. Bunlar öz yerində. Əsas odur ki, insan öz mühitində düzgün başa düşülsün, onun əməli fəaliyyətinə doğru-dürüst münasibət göstərilsin. Mən bu sarıdan həyatımın ötən çağlarını yada saldıqca məmnun olduğumu etiraf edirəm.

Həyatımın müxtəlif çağlarını sözə gətirən qələm dostlarım çoxdur. İndi onları birər-birər sadalamağa lüzum görmürəm. Ancaq bu yaxınlarda uzun illər dostluq etdiyim, bu gün də xatirini çox istədiyim şair-naşir, həm də çox böyük nəsr yaradıcılığı olan Qəşəm İsabəylinin "Bu şəhər mənə gözdağı olub" kitabı əlimə keçdi. Kitabı götürüb vərəqlədim. Memuar ədəbiyyatı seriyasından buraxılan kitabı Qəşəm İsabəyli özünün rəhbəri olduğu "Şirvannəşr"də, 2011-ci ildə çap edib. Kitabın məziyyətləri haqqında geniş və əhatəli danışmaq olar. Amma həm müəllif, həm də kitab haqqında ümumi təəssüratı annotasiyadan da almaq olar: "Ədəbiyyata "yerdə daşdı, göydə quşdu torağaylar" obrazıyla gəlmiş Q.İsabəyli uşaqlar üçün son dərəcə bədii, özünəməxsus "Balaca, bapbalaca", "Şam nağılı", "Əkil-Bəkil", "Üü-ü...", "Nənəm təkdi" kimi əsərlərini yazmışdır. Bədii sözə müqəddəslik meyarı ilə yanaşan müəllifin, sətirlərində zamanın nəbzi döyünən "Ölü bilər, mən bilərəm" kitabını da ədəbi zövqlü oxucular rəğbətlə qarşılamışdır. "Bu şəhər mənə gözdağı olub" toplusu isə indi qıtlıq hiss edilən memuar janrında qələmə alınmışdır. Əslində "qələmə alınmışdır"dan çox, "yaşanmışdır, yaradılmışdır" yerinə düşür. Bu fikir isə heç bir faktla sübuta yetirmək mümkün deyil, sadəcə əlinizdəki kitabı oxumaq lazımdır, cənab oxucular!". Zənnimcə, tutarlı məlumatdır. Burada həm Q.İsabəylinin özü görünür, həm də məni keçmişlərə qaytaran "Bu şəhər mənə gözdağı olub" kitabının məziyyətləri görünür. Bu kitab 3 hissədən ibarətdir. "Bir parça işıq"da mədəniyyətimizin, ədəbi mühitimizin maraqlı insanları haqqında müəllif xatirə-portretlər yaradır. Biz burada xalq artistləri Tofiq Quliyev və Hacı Xanməmmədovu, təcüməçi-naşir Adıgözəl Qəmbərovu, publisist Zaman Novruzu yaddaqalan cizgilərlə təzədən görürük.

"Mən öləndə deməyin uşaqlara" yazısında şair Xanımana Əlibəyli ilə söhbətin şahidi oluruq. "80 külliyyatdır... filmin sonudu" yazısını müəllif xalq şairi Qabil haqqında xatirələri ilə süsləyib. Hətta sərlövhəyə çəkdiyi həmin sözlər elə Qabilin misralarıdır.

Bu kitabda xalq yazıçısı Əzizə Cəfərzadəni və Xınalıq şairi Rəhim Alxası da çox kövrək duyğularla xatırlayırıq. "O, sənətdə təmiz idi" xatirə yazısı xalq şairi Cabir Novruza həsr olunub. "Bir ömürlük işıq" yazısı həyatdan vaxtsız köçmüş Əlislam Bilaldan bəhs edir. "Mən Bakının istisini sevirəm"də xalq yazıçısı Qılman İlkin işığı varlığımıza dolur. "Bu nömrəyə zəng çatmır"da Elman Həbib, "Ay şair..."də, "Sadəliyin Budaq Budaqov zirvəsi"ndə, "Deyirlər şairdi", "Koroğlu aşıq" kimi dəyərli yazılarda Azərbaycan xalqının mənəvi zənginliyinə təminat olan söz-sənət adamlarının orijinal təbiətlərindən bəhs olunur.

Ancaq mən bu kitabda haqqımda yazılmış "Hər gün - iş... və ya bizim Şəddat müəllim" xatirə povesti haqqında bir qədər geniş danışmaq istəyirəm. Ona görə yox ki, bu əsər mənim barəmdədir. Ona görə danışmaq istəyirəm ki, bu əsərdə mən dövrün kifayət qədər real mənzərəsini görürəm. Həmin dövrün insanları, həyatımıza rəng qatmış adamları Qəşəm İsabəylinin hədsiz dərəcədə səmimiyyəti ilə canlanır. Obrazlar, həyat hadisələri film kimi göz önünə gətirilir. İstəyirəm ki, bir daha öz yanaşmamla bu əsərin film kadrlarını təzədən oxucuların diqqətinə çəkim. Qoy yeni nəsillər bir daha görsünlər ki, bu günkü Azərbaycanımız hansı mənəvi mühitdən, əgər belə demək mümkünsə, hansı çətinliklərdən keçib.




Vətənin sərhədlərini ordu qoruyur. Mən çox qürurlanıram ki, müzəffər Ali Baş Komandanın sayəsində torpaqlarımız işğaldan azad olundu. Qəddar düşmənin əliylə dağıdılmış şəhərlərimiz, kəndlərimiz bərpa olunmağa başlanıb. Ancaq bir mənəvi sərhədlər anlayışı da var. Mənəvi sərhədləri yazıçılar qoruyur, mədəniyyət xadimləri hifz edir. Bu mənəvi sərhədlər içərisində mövcud olan xalq ruhunu söz-sənət adamları zənginləşdirir.

Qəşəm İsabəylinin "Bu şəhər mənə gözdağı olub" kitabında yer almış "Hər gün - iş... və ya bizim Şəddat müəllim" xatirə povestində yazıçı ruhu məhz gələcəyə hesablanmış arifanə bir məqsədlə xalqın ən üstün keyfiyyətlərini qorumağa xidmət edir.

Qəşəm İsabəyli Azərbaycan mühitində yaxşı tanındığı üçün onun haqqında artıq epitetlərə lüzum görmürəm, bircə onu deyirəm ki, istedadlı şair olduğu qədər həm də böyük nasirdir. Bircə cümlənin, bircə abzasın içərisində həyatın bir parçasını bütün reallığı ilə yerləşdirə bilir. Oxucu onun cazibəsini elə ilk cümlələrdəncə duyur. Və əgər belə demək mümkünsə, daha bu cazibədən çıxa bilmir. Müəllif xatirə povesti öz həyatının şəhərə doğru gələn yolunun əvvəlindən başlayır: "Onda kənd havası başında, sütül bir oğlan idim; xasiyyətim özümdən böyüklərlə oturub-durmaq olardı. Qoca kişilərin dizinin dibini kəsdirib, gözlərimi ağızlarından çəkmədən şirin söhbətlərinə qulaq asmaqdan doymazdım. Tay-tuşlarım, gərək ki Həsənağa qoymuşdu bu adı, "Qoca" deyərdilər mənə. Doğulduğum Xəlsə kəndindən Bakıya da başımda bu hava, gəlmişdim. İlk tanışlığım da özümdən böyüklərlə oldu. Əvvəlcə tovuzlu tələbə yoldaşım Firudin Sadıqov məni əmisi oğlu şair Məmməd İsmayılla tanış elədi. O da Müzəffər Şükürlə...". Bu bir abzasın içərisində bir neçə ad verilib. Müəllif doğulduğu kəndin adını çəkir. Özünə hələ gənckən verilmiş "qoca" ləqəbini yada salır. Hətta bu adı ona vermiş taytuşlarından birini - Həsənağanı da unutmur. Firudin Sadıqov, Məmməd İsmayıl sözün astagəlliyi ilə mətn içərisində öz yerini alır.

Oxucu adlar qalereyasına baxa-baxa irəliləyir. İndi hansı ad, hansı hadisə vəziyyəti dəyişəcək? Bunu hələ oxucu bilmir, amma müəllif daxilindən gələn yaddaş işığının açdığı yolla, daha doğrusu, istedadının fəhmi ilə yeni, daha maraqlı məqama doğru can atır: "Dar axşamçağıydı, Müzəffər bəylə Nizami küçəsiylə gedirdik. Onda nə o - Məchul idi, nə mən - İsabəyli; biz - ilk kitabının nəşrini gözləyən sadəcə Müzəffər Şükür, ilk şeiri çap olunan sadəcə Qəşəm Mayıl idik". Bir neçə cümlənin içərisində nə qədər informasiya toplanır. Bir daha Müzəffər Şükürün "Məchul" imzası yada düşür. Oxucu onu da öyrənir ki, Qəşəm İsabəylinin əvvəlki ədəbi imzası "Qəşəm Mayıl" olub.

Beləliklə, qalereyanın portret obrazlarından yan keçmədən onların hər biri haqqında düşünərək sanki sərginin bizi çəkən tərəfinə doğru gedirik. Və bu zaman müəllif xatirəsinin işığını bir təsadüfün üzərində fokuslayır: "Birdən Müzəffər bəy yanımdan qopub, yolun qarşı tərəfinə keçdi. Mən beş-on addım yeriyib, kəndçi marağıyla çevrilib, o getdiyi səmtə baxmağa başladım; ucaboy, qara plaşlı cavan bir adamla söhbət eləyirdi". Müzəffər Şükür maraqlı adam idi. Onu da kifayət qədər tanıyırdım. Və onu da deyim ki, Müzəffər Şükür öz həmyaşıdlarından daha əvvəl mənimlə tanış olan müəlliflərdən idi. Bu arada Qəşəm İsabəyli haqlı olaraq Müzəffər Şükür obrazına xeyli yer ayırır. Hətta ümumi yazı ilə müqayisədə bu ayrılan yer bir qədər məhdud, kiçik görünə bilər. Amma di gəl ki, Qəşəm İsabəyli onu o qədər istəklə, sevgiylə tərənnüm edir ki, oxucunun yaddaşında birdəfəlik sakin olur: "Allah şəfa versin, indi yataq xəstəsi olan Müzəffər Şükür nəşriyyat redaktoruydu. O vaxtlar bu redaktorluq balaca vəzifə sayılmazdı; işi düşən, sözünü eşidən çox olardı. Qələm dostumun xeyirxahlığıyla yanaşı son dərəcə də sərt sifəti vardı. Necə deyərlər, vay o adamın halına ki, onun girinə yamanlığa keçəydi. Xoş o adamın halına ki, yaxşılığa düşəydi onun dilinə. Adətən Müzəffər Şükürü redaktoru olduğu kitabın müəllifiylə təbəssümsüz danışan görərdin. Hətta Rəsul Rza kimi sərt xarakterli şairi necə çaşdırmışdısa, o boyda ustad hirslə ayağa durub, şlyapasını götürmək belə yadına düşmədən, çıxıb getmişdi... Bir sözlə, nağılçı diliylə desək, "Azərnəşr"ə gələn müəlliflər Müzəffər Şükürdən tük salardı.Amma indi... təəccüb qalmışdım, yolun o tayındakı kim idisə, Müzəffər bəy onunla çox səmimi danışırdı". Bu mətnə cüzi diqqət bəs edir ki, Qəşəm İsabəyli bu qeydləri yazanda hələ Müzəffər Şükür həyatda olub. Ancaq həyatının son çağlarını yaşamaqda olan Müzəffər Şükür dünyalarca sevdiyi insanlardan bir qədər tez ayrılmalı oldu. Onu sərt təbiəti, yaxşıya ürək açıqlığı, pislərin qarşısını kəsmək üçün qətiyyəti Qəşəm İsabəylinin qeydlərindən də aydın görünür.

***(Davamı var)***